# Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına dair hesabat məruzəsi

(Əvvəli 4-cü səhifədə).

"Ölkəmizi tanıyaq" devizi altında rayonun ümumtəhsil məktəblərindən 2 nəfər müəllim, 10 nəfər şagird qədim Nəqşi Cahan, indiki Naxçıvan şəhərinə ekskursiyaya göndərilmişlər.

Qəbələ Rayon Mədəniyyət və Turizm Şöbəsinin strukturunda rayon Mədəniyyət Mərkəzi və onun 35 filialı, Heydər Əliyev Mərkəzi, incəsənət məktəbi, dövlət rəsm qalareyası, tarix-diyarşünaslıq muzeyi, mərkəzləşdirilmiş kitabxana sistemi və onun 26 filialı, tarix-bədii qoruğu fəaliyyət göstərir.

2015-ci ilin birinci yarısında 20 Yanvar hadisəsinin 25 illiyi münasibətilə bütün müəssisələrdə anım mərasimləri keçirilmiş, foto-stendlər və guşələr təşkil edilmişdir. Qəbələ Dövlət Rəsm Qalareyasında rəsm studiyası şagirdlərinin rəsm əsərlərindən ibarət foto-sərgi təşkil olunmuşdur. Qəbələ Mədəniyyət Mərkəzində ədəbi-bədii kompozisiya və "Bakıfilm" kinostudiyasının ekranlaşdırdığı rejissor Vahid Mustafayevin "Qanlı Yanvar" filmi nümayiş etdirilmişdir.

Fevralın 2-də Azərbaycan Gəncləri Günü münasibətilə Qəbələ Mədəniyyət Mərkəzində dəyirmi masa keçirilmişdir. Tədbirdə rayonun ictimai-siyasi həyatında fəallıq göstərən gənclər iştirak etmişlər. Eyni zamanda Gənclər Günü münasibətilə mədəniyyət müəssisələrində müxtəlif səpgidə tədbirlər həyata keçirilmişdir.

Fevral ayında Qəbələ Dövlət Rəsm Qalereyasının əməkdaşları tərəfindən Qəbələ Konqres Mərkəzində xalq tətbiqi sənətkarlıq əsərlərindən ibarət sərgi keçirilmişdir. Sərgidə ağac-oyma, dulusculuq və xalçaçılıq nümunələri nümayiş etdirilmişdir.

26 fevral--Xocalı soyqırımının 23-cü ildönümü münasibətilə tərtib olunmuş tədbirlər planına əsasən mədəniyyət müəssisələrində silsilə tədbirlər həyata keçirilmişdir. Rayon Mədəniyyət Mərkəzində "Xocalı əsrin qətliamıdır" mövzusunda dəyirmi masa təşkil olunmuşdur. Qəbələ Dövlət Rəsm Qalareyasında Xocalı faciəsini əks etdirən fotolardan ibarət foto-sərgi təşkil edilmişdir.

Mədəniyyət və Turizm Nazirliyinin "Bölgələrdən paytaxta" adlı yeni layihəsi çərçivəsində 2 mart tarixində Bakı şəhəri Gənc Tamaşaçılar teatrında Qəbələ Günü keçirilmişdir. Tədbirdə Qəbələ rayonunun sosial-iqtisadi inkişafını, zəngin mədəniyyətini, adət-ənənələrini, mətbəx nümunələrini, dekorativ-tətbiqi sənət ustalarının əl işlərini, bölgənin turizm imkanlarını əks etdirən sərgi təşkil olunmuş və Qəbələ incəsənət ustalarının konserti nümayiş olunmuşdur.

Amerkanın Azərbaycandakı səfirliyinin təşkilatçılığı ilə Amerikanın "Break of Reality" simli kvartetinin Azərbaycana səfəri çərçivəsində martın 13-də Qəbələ Mədəniyyət Mərkəzində konsert proqramı ilə çıxış etmişdir. Konsert tamaşaçılar tərəfindən maraqla qarşılanmışdır.

Martın 19-da Bakıda, Dənizkənarı Milli Parkda keçirilən ümumrespublika Novruz şənliyində Qəbələ rayonunda istehsal edilən sənaye və kənd təsərrüfatı məhsullarını özündə əks etdirən stend təşkil olunmuş, kulinariya məhsulları və xalq tətbiqi sənəti nümunələri nümayiş etdirilmişdir.

Martın 20-də rayonun Heydər Əliyev parkında geniş tədbir keçirilmişdir. Tədbirdə meydan tamaşaları göstərilmiş, rayon Mədəniyyət Mərkəzinin "Çinar" instrumental ansamblı, "Gülbuta" folklor qrupu, Hacıalılı kənd Yaradıcılıq evinin "Gülüstan" folklor qrupu, Bum Qəsəbə Yaradıcılıq Evinin "Zopu-zopu" etnoqrafik folklor rəqs ansamblı, "İncə" rəqs qrupu, İncəsənət məktəbinin musiqi kollektivləri yüksək fəallıqla çıxış etmişlər. Qəbələ Dövlət Rəsm Qalereyasının əməkdaşları tərəfindən rəsm əsərləri və xalq tətbiqi sənət nümunələri nümayiş etdirilmişdir.

31 mart--Azərbaycanlıların Soyqırımı Günü münasibətilə bütün müəssisələrdə anım mərasimləri keçirilmiş, foto-stendlər, güşələr təşkil olunmuşdur. Qəbələ rayon Mədəniyyət Mərkəzində dəyirmi masa və Qəbələ Dövlət Rəsm Qalereysı tərəfindən Azərbaycanlıların Soyqırımı ilə əlaqədar sərgi təşkil edilmişdir.

"Narkotik vasitələrinin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci il illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə tədbirlər planına uyğun olaraq rüb ərzində bütün müəssisələrdə "Narkomaniyaya yox deyək", "Ağ ölüm" başlığı altında foto-stendlər, guşələr təşkil olunmuşdur. Qəbələ Dövlət Rəsm Qalereyasında narkomanlığın acı nəticələrini əks etdirən rəsm əsərlərinin sərgisi təşkil olunmuşdur.

Qəbələ Dövlət Rəsm Qalareyasında da müxtəlif səpgili tədbirlər keçirilmişdir. 17 aprel 2015-ci il tarixdə Qəbələ Dövlət Rəsm Qalereyasında gənc rəssam, Azərbaycan Rəssamlar İttifaqının üzvü Orxan Məmmədovun fərdi sərgisi açılmışdır. Həmyerlimiz olan Orxan Məmmədov özünəməxsus maraqlı üsulla işləyib hazırladığı 18 sənət əsərini sərgiyə təqdim etmişdir. Müəllif müstəqil sujetləri iplər və kəndirlərlə dekorativ üsulla tikərək yeni bədii cərəyan və üslublarla səsləşən, özünəməxsus abstrakt sənət əsərləri yaratmışdır. Maraqlı janrda təşkil olunan sərginin açılışında rayon ziyalıları iştirak etmişlər.

Qəbələdə 17 turizm istirahət obyekti fəaliyyət göstərir. Onların arasında 4 otel beşulduzludur. Qəbələdə yerləşən mehmanxana tipli obyektlərdə bir gündə 2000-dən yuxarı turisti qəbul etmək imkanı vardır. Bu ilin 6 ayı ərzində Qəbələyə 21000-dən yuxarı turist gəlmişdir.

Mərkəzi rayon xəstəxanasında ötən 6 ay ərzində stasionar xəstələrin sayı 1463 nəfər, cərrahi əməliyyatların sayı 97 olmuşdur. Bu müddət ərzində 681 doğuş baş vermiş, ev doğuşu olmamışdur.

Cari ilin 6 ayı ərzində təcili yardım şöbəsinə çağrışların sayı 2575 olmuşdur. Şəkərli xəstələrin sayı 1381, ilk dəfə aşkar olunanaların sayı 94 olmuşdur. Şəkərli xəstələr dərmanla təchiz olunur. Onkoloji xəstələrin sayı isə 486, ilk dəfə aşkar olunanalar 57 nəfər, ölənlər isə 43 nəfər olmuşdur.

2015-ci ilin ötən dövrü ərzində talasemiyalı xəstələrin sayı 272, hemofiliyalı xəstələrin sayı 6, ruhi xəstələrin sayı 832 nəfərdir. Əlillərin sayı 2577 nəfər, I dərəcəli 71, II dərəcə 1350, III dərəcə 392, uşaqların sayı isə 764-dür. Uşaqların 64 nəfərinə ilkin əlillik, 170 nəfərinə isə təkrar əlillik verilmişdir. Böyük yaşlılardan isə 155 nəfər ilkin əlillik, 847 nəfər təkrar əlillik dərəcəsi almışdır. Bunlardan əlavə 27 nəfər tam reablitasiya, 18 nəfər hissəvi reablitasiya edilmişdir.

Ölkə Prezidentinin tapşırığı əsasında respublikada 18 yaşından yuxarı olan əhalinin 2 fevral tarixindən 1 may tarixinədək dispanserizasiyası məqsədilə kütləvi tibbi müayinəsi keçirilmişdir. Respublika Səhiyyə Nazirliyi tərəfindən işin təşkili barəsində müvafiq tapşırıqlar verilmişdir. Rayonda bu tədbirin mütəşəkkil keçirilməsi üçün müəyyən hazırlıq işləri görülmüşdür. Tərtib edilmiş qrafikə əsasən mərkəzi rayon xəstəxanasında və müalicə diaqnostika mərkəzində əhali dərin müayinələrə cəlb edilmiş, eyni zamanda bütün qəsəbə və kəndlərdə həkim briqadaları tərəfindən qrafikə uyğun olaraq ilkin müayinələr aparılmaqla dərin tibbi müayinəyə daha çox ehtiyacı olanlar aşkar edilərək aidiyyəti müayinələrə göndərilmişdilər. 2 fevral- 30 aprel 2015-ci il tarixlərdə ümumilikdə 18 yaşına çatmış 69263 nəfər vətəndaş müayinə edilmişdir. Əhalinin müayinəsində bütün ixtisas həkimləri və laborator-instrumental kabinetləri iştirak etmişdir. Müayinələrin nəticəsinə əsasən 5466 nəfərə ambulator müalicə təyin edilmiş, 285 nəfər stasionar müalicəyə göndərilmiş, 184 nəfər Bakı şəhərindəki ixtisaslaşdırılmış klinikalara məsləhət bilinmişdir. Müayinələrə rayonun bütün yaşayış məntəqələri cəlb edilmişdir.

Qəbələ rayon Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən 2015-ci ilin 6 ayı ərzində hepatit «B»-yə qarşı 672, göyöskürəyə, difteriya və tetanusa qarşı 792, qızılça, parotit, məxmərəyə qarşı 1566, polimelitə qarşı 2850,6 yaşlı uşaqlar arasında difteriya və tetanus əleyhinə 642, pinevmaniya əleyhinə 2112 profilaktik peyvəndlər aparılmışdır. Yeni doğulmuş 462 nəfər uşağa BSJ, hepatit, «B» və Polimelit peyvəndi edilmişdir.

Mərkəz tərəfindən 2015-ci ilin 6 ayı ərzində rayonun yaşayış məntəqələri üzrə parazitar xəstəliklərə qarşı profilaktik tədbirlər aparmaq məqsədilə 1216 nəfərdən qalın qan yaxması götürülərək parazitoloji labaratoriyada müayinə edilmiş, malariya xəstəliyi aşkar olunmamışdır.

2015-ci ilin müvafiq dövründə rayon GEM-nin bakterioloji labarotoriyasında yoluxucu xəstəliklərin aşkar edilməsi məqsədilə 207 müayinə aparılmışdır. Bu müayinələr zamanı törədicisi məlum olan 2 kəskin bağırsaq infeksiyası, 4 törədcisi məlum olmayan kəskin bağırsaq infeksiyası, 3 ilkin brüssellyoz və 4 xroniki brüssellyozlu xəstə aşkar edilmişdir.

Mərkəzin bakterioloji labaratoriyasında 30 su nümunəsi bakterioloji müayinə olunmuşdur.

Müalicə-diaqnostika mərkəzində 2015-ci ilin 6 ayı ərzində konsultativ poliklinika şöbəsinə xəstə gəlişlərinin sayı 11646, endoskopiya kabinetində müayinələrin sayı 158, EKQ müayinələrinin sayı 2356, stomatoloji kabinetdə müalicə olunan xəstələrin sayı 180 nəfər, stasionar şöbəyə daxil olan xəstələrin sayı 421 nəfər, aparılmış cərrahiyyə əməliyyatlarının sayı 416, onlardan 11 laparoskopik əməliyyatlardır. Hemodializ şöbəsində 51 xəstədə 2398 hemodializ seansı aparılmış, şüa diaqnostika şöbəsində USM müayinələrinin sayı 6525, kompüter-tomoqrafik müayinələrin sayı 574, rentgen müayinələrin sayı 5740, fizioterapiya və tibbi bərpa şöbəsində prosedurların sayı 2778 və kliniki laboratoriyada 4201 xəstədə 143446 müayinə aparılmışdır.

Ölkəmizin birinci xanımı, Heydər Əliyev fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Azərbaycanda həyata keçirilən "Talassemiyasız həyat naminə" proqramı layihəsi çərçivəsində mərkəzdə qanvermə aksiyası keçirilmişdir.

2015-ci ilin 6 ayı ərzində gənclər və idman idarəsi tərəfindən 36 tədbir həyata keçirilmişdir. Bunlardan 19 tədbir gənclərlə iş sahəsini, 17 tədbir isə kütləvi bədən tərbiyyəsi və idman sahəsini əhatə etmişdir.

Təqvim planına müvafiq olaraq keçirilən respublika tədbirlərində gənclər və idman sahəsində nümayəndələrimizin iştirakı təmin olunmuşdur. Belə ki, gənclərlə iş sahəsində respublika üzrə keçirilən 6 tədbirdə, idman sahəsi üzrə isə 16 yarış və birincilikdə idmançılarımız rayonumuzu təmsil etmişlər.

2015-ci ilin birinci yarımili Azərbaycan üçün son dərəcə əhəmiyyətli və əlamətdar olan "Bakı-2015" I Avropa Oyunlarının keçirilməsi ilə yaddaqalan olmuşdur. Mötəbər tədbirin iştirakçıları arasında "Qəbələ" İdman Klubunun idmançıları da öz güclərini sınamışlar. Belə ki, 6 idman növü üzrə (taekvondo, cüdo, boks, sambo, karate, atıcılıq) yarışa qatılan idmançılarımız boks üzrə 1 qızıl, karate üzrə 1 qızıl və 1 bürünc, sambo üzrə 2 gümüş medal qazanmışlar.

Birinci yarımil ərzində bir neçə beynəlxalq və respublika səviyyəli yarış keçirilmişdir. Bunlardan ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr edilmiş "Tour d'Azerbaidjan-2015" Beynəlxalq velosiped turnirini, yeniyetmələr arasında sərbəst güləş üzrə ölkə birinciliyinin zona yarışlarını, cüdo idman növü üzrə Qəbələ rayon Açıq Turnirini, ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr edilmiş Olimpiya Atıcılıq növləri üzrə II Beynəlxaq Qran-Pri yarışlarını, "Bakı-2015" I Avropa Oyunları çərçivəsində "Alov Festivalını", "Mədəni dialoq: etnik ənənələr və müasirlik" adlı layihə çərçivəsində gənclərin regional konfransını, "Gənc xilasedici və yanğınsöndürən" yarışının respublika zona mərhələsini və sairlərini misal göstərmək olar.

(Ardı 6-cı səhifədə).